**“Maarifpərvərlik”
Azərbaycan Gənclərinin
İctimai Yardım Assosiasiyası
(MAGİYA) ictimai birliyi**

**“Education”
Public Support Association
of Youth of Azerbaijan
(EPSAYA) public union**

**Azərbaycan Respublikası, AZ 42 00, Lənkəran şəhəri, Qala Xiyabanı 12,
E-mail: magiya_ngo@yahoo.com, Tel.: (+ 994 25) 255 09 04, Mob.: (+ 994 55) 792 44 42**

# MALİYYƏ HESABATI – 2011

## Müxtəsər təfsilat

31 mart 2005-ci il tarixində Lənkəran şəhərində müəyyən olunmuş məqsədlərlə ümumi maraqlar əsasında birləşən yerli ziyalı gənclərin təşəbbüsü ilə yaradılmış qeyri-siyasi, könüllü, özünüidarəedən, öz fəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutmayan ***“Maarifpərvərlik” Azərbaycan Gənclərinin İctimai Yardım Assosiasiyası (MAGİYA) ictimai birliyi*** 31 may 2005-ci il tarixində Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən dövlət qeydiyyatına alınmışdır. Birliyin fəaliyyət dairəsi Azərbaycan Respublikasının ərazisini əhatə edir.

Məqsədi və fəaliyyət predmeti gənclər və gənclər vasitəsi ilə ictimaiyyət arasında sosial, iqtisadi, hüquqi, ekoloji və sair istiqamətlərdə maarifləndirmə və məlumatlandırma işinin aparılmasından ibarət olan MAGİYA ictimai birliyinin vəzifələri yeniyetmə və gənclər, o cümlədən geniş ictimaiyyət arasında müvafiq maarifpərvər tədbirlər sistemini (müxtəlif təlimlər və seminarlar, debatlar və klublar, dəyirmi masalar və görüşlər, dərnəklər və kurslar, konfranslar və sərgilər, xeyriyyə marafonları və digər mədəni-kütləvi tədbirlər) həyata keçirməklə cəmiyyətdə elmi-kütləvi biliklərin artmasına köməklik etməkdir.

## Donor və tərəfdaşlar

MAGİYA ictimai birliyinin cari il ərzində donor və tərəfdaşları aşağıdakı qurumlar olmuşdur:

| | |
|---|---|
| • Avropa İttifaqı; | • Uşaqların Xilası Təşkilatı (Save the Children); |
| • Statoil Şirkəti; | • Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi. |

**Layihə və tədbirlər**

MAGİYA ictimai birliyi cari il ərzində ***"Yeniyetmələr üçün Həyat Bacarıqları Proqramı"*** adlı bir layihə icra etmişdir.

Məlumat üçün qeyd olunmalıdır ki, MAGİYA ictimai birliyi 2010-cu il tarixində "Yeniyetmələr üçün Həyat Bacarıqları Proqramı" adlı layihənin həyata keçirilməsi üzrə "Uşaqların Xilası" (Save the Children) Beynəlxalq Təşkilatı və onun tərəfdaş təşkilatı olan "Ümidli Gələcək" Gənclər Təşkilatı tərəfindən elan edilən tenderdə iştirak etmiş və respublika üzrə bu tenderdə qalib gələn 5 təşkilatdan biri olmaqla, Lənkəran rayonu üzrə həmin təşkialtların yerli tərəfdaşı seçilmişdir. Bu məqsədlə, 10 iyul 2010-cu il tarixində MAGİYA ictimai birliyi ilə "Ümidli Gələcək" Gənclər Təşkilatı arasında "Yeniyetmələr üçün Həyat Bacarıqları Proqramı" üzrə sub-qrant müqaviləsi (Dci-Nsapvd/2009/200-518) imzalanmışdır. Müqavilənin müddəti 10 iyul 2010-cu il – 10 oktyabr 2011-ci il tarixlərini əhatə etməklə layihə 15 ay ərzində icra edilmişdir. Layihənin dəyəri ***10 000 (on min) Avro*** və ya **10566 (on min beş yüz altmış altı) manat** məbləğində olmuşdur və tərəflər arasında imzalanmış sub-qrant müqaviləsinin müddəalarına əsasən 2010-cu il üçün həmin məbləğdən ***3155 (üç min yüz əlli beş) manat***, 2011-ci il üçün isə ***7411 (yeddi min dörd yüz on bir) manat*** ictimai birliyin müvafiq hesabına köçürülmüşdür.

Qeyd edək ki, tərəflər arasında imzalanan sub-qrant müqaviləsinin məqsədi "Ümidli Gələcək" Gənclər Təşkilatı və MAGİYA ictimai birliyi arasında tərəfdaşlıq münasibətlərini formalaşdırmaqdan və Avropa Komissiyasının maliyyələşdirdiyi "Yeniyetmələr üçün Həyat Bacarıqları Proqramı" adlı layihənin Lənkəran rayonunda həyata keçirilməsindən ibarət olmuşdur. Əlavə edək ki, layihə "Uşaqların Xilası" ("Save the Children") Beynəlxalq Təşkilatı və "Ümidli Gələcək" Gənclər Təşkilatının birgə təşkilati, Avropa Birliyi və "Statoil" şirkətinin isə maliyyə dəstəyi əsasında Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi, Təhsil, Gənclər və İdman Nazirlikləri, o cümlədən Ailə, Qadın və Uşaq Problemləri Üzrə Dövlət Komitəsi ilə sıx əməkdaşlıq çərçivəsində həyata keçirilmişdir. Layihənin icrası zamanı MAGİYA ictimai birliyi ilə "Osman Mirzəyev adına Qarışıq Tipli Uşaq Evi", "Lənkəran Peşə Liseyi", "Əqli və Fiziki Cəhətdən Qüsurlu Uşaqlar üçün Xüsusi İnternat Məktəbi" və Lənkəran Məşğulluq Mərkəzi arasında təlim-təhsil və məşğulluq sahəsində yeniyetmə və gənclərin həyat bacarıqlarının artırılması istiqamətində müvafiq anlaşma memorandumları imzalanmış və bu məqsədlə həmin müəssisələrin şagird, tələbə, müəllim, tərbiyəçi və təlimatçıları üçün cari il ərzində ümumilikdə 2 sosial sorğu, 2 mübadilə görüşü, 2 dəyirmi-masa, 5 təlim kursu və 1 mətbuat konfransı təşkil edilmişdir ki, bütün bu tədbirlər ərzində QHT və KİV təmsilçiləri də daxil olmaqla, tərəfdaş təşkilatların nümayəndələri həyat bacarıqlarının inkişafı sahəsində yüksək səviyyədə maarifləndirilmiş və məlumatlandırılmışlar.

**Bank rekvizitləri**

MAGİYA ictimai birliyinin bank rekvizitləri və eləcə də, cari il ərzində ictimai birliyin hesabına daxil olmuş vəsaitlərin ümumi məbləği aşağıdakı cədvəldə verilmişdir:

***MAGİYA ictimai birliyinin bank rekvizitləri***

| № | Kassa | QSC "Bank Standard" KB "Lənkəran" filialı |
|---|---|---|
| 1 | Bank hesabı milli valyuta ilə | 380900000600005 AZN |
| 2 | Bank hesabı xarici valyuta ilə | 381900001600003 USD |
| 3 | Bank hesabı xarici valyuta ilə | 381900045600002 EUR |
| 4 | 2011-ci ildə daxilolmaların cəmi | 7411 manat |

**Daxilolmalar və xərclər**

MAGİYA ictimai birliyinin cari il ərzində təsərrüfatdaxili istehsal olunmuş əsas vəsaitləri, onlara sərf edilmiş material dəyəri, əmək haqqı və qaimə xərcləri olmamış, üzvlük haqqları tutulmamışdır.

***"Yeniyetmələr üçün Həyat Bacarıqları Proqramı" adlı layihə çərçivəsində bağlanan Sub-qrant müqaviləsi əsasında MAGİYA ictimai birliyinin "Ümidli Gələcək" Gənclər Təşkilatından aldığı 7411 (yeddi min dörd yüz on bir) manat məbləğin xərclənmə təyinatı (03 yanvar – 10 oktyabr, 2011-ci il)***

| *№* | *Xərclərin təyinatı* | *Xərclərin məbləği* |
|---|---|---|
| *1* | Sub-qrant | 7411,00 |
| *2* | Sub-qrantın 2010-cu il üzrə qalığı | 411,67 |
| *3* | *Bank (xidmət haqqları)* | *25,53* |
| *4* | *Enerji (elektrik xərcləri)* | *183,24* |
| *5* | *Telefon (danışıq xərcləri)* | *145,00* |
| *6* | *Nəqliyyat (ezamiyyə xərcləri)* | *187,00* |
| *7* | *Material (dəftərxana ləvazimatları)* | *200,99* |
| *8* | *Tədbirlər (sorğular, mübadilə görüşləri, dəyirmi-masalar,* | *2106,41* |

| | | |
|---|---|---|
| | *təlimlər və mətbuat konfransının təşkili məsrəfləri)* | |
| *9* | *Xidmət haqqları (xidmət göstərənlər, sorğuçular, təlimçilər)* | *4427,49* |
| *10* | *Digər xidmət haqqları (KİV, mətbəə, nəqliyyat)* | *517,42* |
| Cəmi | | 7793,08 |
| Qalıq | | 29,59 |

***Qeyd:***

“Yeniyetmələr üçün Həyat Bacarıqları Proqramı” adlı layihənin həyata keçirilməsi yekunlaşdırıldıqdan sonra qalıq kimi qalmış 29,59 (iyirmi doqquz manat əlli doqquz qəpik) manat 2012-ci il üçün təşkilatın balansında qalmışdır.

**www.epsaya.az**